GÜVƏNNƏŞRLƏRİ

**FONETİKA**: Danışıq səsləri. Saitlərin növləri: qalın, incə; açıq, qapalı; dodaqlanan, dodaqlanmayan. Samitlərin növləri: kar və cingiltili. Sözün səs və hərf tərkibi. Bir sıra sözlərdə "o" saitinin [a] kimi tələffüz edilməsi. Söz sonunda cingiltili samitlərin ( "b", "c", "d", "g" ) tələffüzü.

"K" və "Q" samitlərinin yazılışı və deyilişi. Sözlərin sonunda "k-y" və "q-ğ" əvəzlənməsi. Qoşa samitlə bitən təkhecalı sözlər: eynicinsli qoşa samitlə bitən sözlər, müxtəlifcinsli qoşa samitlə bitən sözlər. Söz ortasında yanaşı gələn ***tt, kk, pp, qq*** samitlərinin tələffüzü. Ahəng qanunu. Heca. Sözün yazılışı və deyilişinə görə təhlili (fonetik təhlil).
**MƏTN ÜZƏRİNDƏ İŞ. Buraxılış imtahanında istifadə olunacaq mətnlər haqqında məlumat. Təlim üsulları.**

**LEKSİKA**: Sözün leksik və qrammatik mənası. Əsas nitq hissələrinin həm leksik, həm də qrammatik mənaya malik olması, köməkçi nitq hissələrinin isə ancaq qrammatik mənaya malik olması. Sözün ilkin - həqiqi mənası. Sözün məcazi mənası. Çoxmənalı sözlər.

**Omonimlər**. Omonim sözlərlə çoxmənalı sözlərin müqayisəsi. **Sinonimlər. Antonimlər.** Frazeoloji birləşmələr (sabit söz birləşmələri). Terminlər (alınma sözlər). Sözün leksik təhlili.
**MƏTN ÜZƏRİNDƏ İŞ. Mətnin hissələri: giriş, əsas, nəticə hissə.**

**ÜSLUBİYYAT**. Üslubiyyat və üslub haqqında ümumi məlumat. Azərbaycan ədəbi dilinin funksional üslubları. **Bədii üslubun xüsusiyyətləri.** Bədii üslubun obrazlı nitq forması olması. Bədii üslubun təzahür formaları (şeir dili, nəsr dili, dram dili). Sözün informativ və poetik funksiyaları. Bədii söz. Bədii təsvir və ifadə vasitələri. Ellipsis. **Elmi üslub.** Elmi üslubun xüsusiyyətləri: izah etmək, şərh etmək, nəticə çıxarmaq. Elmi üslubda sözlərin terminləşməsi (Sözün terminoloji funksiyası). Sözün həqiqi mənada işlədilməsinin elmi üslubun xüsusiyyətlərdən biri olması.

**Publisistik üslubun xüsusiyyətləri.** Publisistik üslubin formaları: yazılı və şifahi. **Rəsmi-işgüzar üslub.** Rəsmi-işgüzar üslubun əsas xüsusiyyətləri. Rəsmi sənədlərin dili. İşgüzar sənədlərin dili.
**Məişət üslubu.** Məişət üslubunun xüsusiyyətləri. Dialoji nitq. İntonasiya və jest-hərəkət.
**Xülasə**. Xülasəyə verilən tələblər. **Tezis**. Tezisin əsas xüsusiyyətləri.

**MORFOLOGİYA**
**Nitq hissələri**. Nitq hissəsi anlayışı. Nitq hissələrinin bölgüsü. Əsas və köməkçi nitq hissələri.
**İSİM**: ismin əşya adı bildirməsi. Konkret və mücərrəd isimlər. Ümumi və xüsusi isimlər. Tək və cəm isimlər. Toplu isimlər və onların cəm isimlərdənb fərqi. İsmin quruluşca növləri. Düzəltmə isimlər. Mürəkkəb isimlər və onların yazılışı. İsmin halları. Qeyri-müəyyənlik bildirən hallar. Adlıq, qeyri-müəyyən yiyəlik və qeyri-müəyyən təsirlik halların fərqləndirilməsi. Yönlük halda olan sözlərin yazılışı və deyilişi. Çıxışlıq hal şəkilçisinin bəzən fərqli tələffüz edilməsi.

**İsmin mənsubiyyətə görə dəyişməsi.** *Mənbə, mövqe, mənafe, tale, mənşə, su, nə* sözlərinin mənsubiyyətə görə dəyişməsi. Bəzi ikihecalı isimlərin kökündə qapalı saitin düşməsi. İsmin şəxsə görə dəyişməsi – xəbərlik (şəxs) şəkilçiləri.

**SİFƏT**: Əşyaya aid əlamət və ya keyfiyyət bildirməsi. Sifətin quruluşca növləri: sadə, düzəltmə və mürəkkəb sifətlər. Mürəkkəb sifətlər və onların yazılışı. Tərəfləri bitişik və defislə yazılan mürəkkəb sifətlər. Sifətin dərəcələri: adi, azaltma və çoxaltma dərəcələri. Azəaltma və çoxaltma dərəcələrində olan sifətlərin yazılışı.
**SAY**: Əşyanın miqdarını və sırasını bildirməsi. Sayın quruluşca növləri: sadə, düzəltmə və mürəkkəb saylar. Sayın mənaca növləri: miqdar və sıra sayları. Miqdar saylarının növləri: Müəyyən miqdar saylar. Qeyri-müəyyən miqdar sayları. Kəsr sayları. Numerativ sözlər və onların işlənmə məaqmları. Sayların yazılışı (sözlərlə, ərəb rəqəmləri ilə, Roma rəqəmləri ilə). Miqdar saylarında şəkilçilərin yazılışı. Sıra saylarının yazılışı. Deislə yazılıan mürəkkəb saylar. Saylarla işlənən isimlərin təkdə və cəmdə olması.
**MƏTN ÜZƏRİNDƏ İŞ. Mətnin növləri**

**ƏVƏZLİK**: Əvəzlik əsas nitq hissələrinin yerində işlənən söz kimi. Əvəzliyin quruluşca növləri: sadə, düzəltmə və mürəkkəb əvəzliklər. Əvəzliklərin mənaca növləri. Şəxs əvəzlikləri. Onların I, II və III şəxsin təki və cəmində olması. İşarə əvəzlikləri. **O, bu** əvəzlikləri mübtəda vəzifəsində olarkən onlardan sonra vergülün işlənmə məqamları. Sual əvəzlikləri. Qeyri-müəyyən əvəzliklər. Təyini əvəzliklər.
**FEİL**: Onun əşyanın hərəkətini bildirməsi. Təsdiq və inkar feillər. Feillərin şəxsə görə dəyişməsi. Feilin quruluşca növləri. Sadə feillər. Düzəltmə feillər. İsimdən düzələn feillər. Feildən düzələn feillər. Mürəkkəb feillər. Tərəfləri defislə yazılan mürəkkəb feillər.
**Feilin qrammatik məna növləri:** Hərəkətin subyekti və obyekti. Məlum, məchul, şəxssiz, qayıdış, qarşılıq-birgəlik və icbar növ feillər.

**Feilin şəkilləri (Feilin təsriflənən formaları):** Feilin zamana görə dəyişməsi. Feilin zamanları: Keçmiş zaman. İndiki zaman. Gələcək zaman. Xəbər şəkli. Xəbər şəklində olan feillərin həm zamana, həm də şəxsə görə dəyişməsi. Xəbər şəklində olan feillərin yazılışı və deyilişi. Əmr şəkli. Arzu şəkli. Vacib şəkli. Lazım şəkli. Şərt şəkli. **İdi, imiş, isə köməkçi sözləri (**hissəcikləri). **İdi, imiş** hissəcikləri və keçmiş zaman şəkilçiləri. **İsə** hissəciyi və feilin şərt şəklinin şəkilçisi. Cümlədə isə köməkçi sözünün (hissəciyinin) qoşulduğu sözdən sonra vergülün işlənməsi.

**Feilin təsriflənməyən formaları**. Məsdər, feili sifət, feili bağlama feilin şəxsə və kəmiyyətə görə dəyişməyən formaları kimi. **Məsdər**. Məsdərin feilə və isməaid xüsusiyyətləri. Hansı cümlə üzvü vəzifələrində işlənməsi. **Feili sifət**. Feili sifətin feilə və sifətə aid xüsusiyyətləri. Feili sifət şəkilçiləri. Feili sifətin zaman anlayışı bildirməsi. Feili sifət və feildən düzələn sifət. **Feili bağlama**. Feili bağlamanın feilə və zərfə aid xüsusiyyətləri. Feili bağlama şəkilçiləri. Feili bağlamaların, bir qayda olaraq, cümlədə zərflik kimi çıxış etməsi. Hərəkətin tərzini, zamanını və səbəbini bildirməsi. Bəzi sözlərin yerinə görə feili bağlama, yaxud zərf olması.
**ZƏRF**: Zərf haqqında ümumi məlumat. Zərfin quruluşca növləri: Sadə, düzəltmə və mürəkkəb zərflər. Mürəkkəb zərflərin yazılışı: bitişik, defislə və ayrı yazılan mürəkkəb zərflər. Zərfin məna növləri: Tərzi-hərəkət zərfləri. Zaman zərfləri. Yer zərfləri. Kəmiyyət zərfləri. Həm zərf, həm də digər nitq hissələri kimi işlənən sözlər.
**MƏTN ÜZƏRİNDƏ İŞ. Abzas. Abzasın xüsusiyyətləri.**

**SÖZÜN TƏRKİBİ:** Kök və şəkilçi. Leksik və qrammatik şəkilçilər. Şəkilçilərin bir, iki və dördvariantlı olması. İkivariantlı və dördvariantlı şəkilçilər. Bir cür yazılan şəkilçilər. Sözönü şəkilçilər. **Bitişdirici samitlər: y, n, s**
**SÖZ YARADICILIĞI:** Sözün quruluşca növləri. Sadə sözlər. Düzəltmə sözlər. Mürəkkəb sözlər. Tərəfləri bitişik, defislə və ayrı yazılan mürəkkəb sözlər. Sözün tərkibinə görə təhlili.

**KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ : Qoşma**. Qoşmaların ismin müəyyən hallarında işlənən sözlərə qoşulub məna çalarları yarada bilməsi. Qoşmaların yazılışı və deyilişi. Təkhecalı qoşmaların sözlərə bitişik, çoxhecalı qoşmaların isə qoşulduğu sözlərdən ayrı yazılması.
**Bağlayıcı**. Bağlayıcı cümlə üzvləri, cümlələr arasında əlaqə yaradan köməkçi nitq hissəsi kimi. Bağlayıcılarda vergülün işlənməsi. Mürəkkəb bağlayıcılar və onların yazılışı.

**Ədat**. Cümlədə fikrin təsirliliyini artıran köməkçi nitq hissəsi olması. Ədatların mənaca növləri. Ədatların yazlışı. Bitişik və ayrı yazılan ədatlar. Təsdiq və inkar ədatlarından sonra vergülün işlənməsi.
**Modal sözlər**. Danışanın ifadə etdiyi fikrə münasibət bildirməsi. Modal sözlərin mənaca növləri. Modal sözlərdə durğu işarələrinin işlənməsi. **Nida**. Nida hiss-həyəcan ifadə edən köməkçi nitq hissəsi kimi. Nidalarda müəyyən hissi halların ifadəsi. Nidalarda vergül və nida işarəsinin işlədilməsi. **Əsas və köməkçi nitq hissələrinin omonimliyi**. Köməkçi nitq hissələrinin bir-biri ilə omonimliyi. Köməkçi nitq hissələrinin sinonimliyi. Bəzi bağlayıcı və adatların müəyyən şəkilçilərdən fərqləndirilməsi.
**Sözün morfoloji təhlili.**
**MƏTN ÜZƏRİNDƏ İŞ. Mətnin abzaslara ayrılması və ya yeni abzasın müəyyən edilməsi.**

**SİNTAKSİS**. **Söz birləşmələri**. (Sərbəst söz birləşməsi) Söz birləşməsi anlayışı. Söz birləşmələrində əsas və asılı tərəflər. Əsas tərəfinin ifadə vasitəsinə görə söz birləşmələrinin növləri: ismi birləşmələr; feili birləşmələr və onların növləri. **İsmi birləşmələr. Mürəkkəb adlar** (Mürəkkəb adların söz birləşməsi şəklində olması). Mürəkkəb adların yazılışı. Tərkibində bütün sözlərin birinci hərfi böyük yazılan mürəkkəb adlar. Yalnız birinci komponentinin baş hırfi böyük yazılan mürəkkəb adlar. Tərkibində mirzə, hacı, şah, və s. olan mürəkkəb adların yazılışı.
**Feili birləşmələr və onların növləri.** Əsas tərəfi məsdərlə ifadə olunan feili birləşmələr (məsdər tərkibləri). Əsas tərəfi feili sifətlə ifadə olunan feili birləşmələr (feili sifət tərkibləri). Əsas tərəfi feili bağlama ilə ifadə olunan feili birləşmələr (feili bağlama tərkibləri).

**Sintaktik əlaqələr**. Sintaktik əlaqələrin növləri: **tabesizlik və tabelilik əlaqələri.** Tabesizlik əlaqəsinin bərabərhüquqlu söz və cümlələr arasında olması. Tabelilik əlaqəsi. Tabelilik əlaqəsində olan tərəflərdən birinin digərindən asılı olması. Taeblilik əlaqəsinin yaranmasında ismin hal, mənsubiyyət və xəbərlik şəkilçilərinin rolu. Uzlaşma əlaqəsi. Xəbərin mübtəda ilə şəxsə və kəmiyyətə görə uzlaşması.
**Cümlə üzvləri**. Cümlə üzvü anlayışı. **Cümlənin baş üzvləri.** Cümlənin qrammatik əsası: mübtəda və xəbər. **Mübtəda**. Mübtədanın cümlədə haqqında danışılanı bildirməsi. Obyektin mübtəda yerində işlənməsi. Mübtədanın ifadə vasitələri. Adlıq halda olan sözlərlə və söz birləşmələri ilə ifadəsi. **Xəbər**. Xəbərin cümlədə, əsasən, haqqında danışılan barədə məlumat verməsi. Xəbərin ifadə vasitələri. Feili xəbər. Feili xəbərin feilin müxtəlif şəkilləri və frazeoloji birləşmələrlə ifadə olunması. Frazeoloji birləşmələrin həm feili, həm də ismi xəbər rolunda işlənə bilməsi. İsmi xəbər. Heç bir suala cavab verməyən ***var, lazım, gərək, yox, mümkün*** və s. sözlərin ismi xəbər kimi işlənə bilməsi. “Deyil” sözünün adlara qoşulub ismi xəbər olması.
**Cümlənin ikinci dərəcəli üzvləri**: tamamlıq, təyin, zərflik. **Tamamlıq**. Tamamlığın ifadə vasitələri. **Təyin**. Təyinin bütün cümlə üzvlərinə aid olması. Təyinin ifadə vasitələri.

| |
|---|
| **Zərflik**. Zərfiiyin, əsasən, feili xəbərə aid olması. Mənaca növləri: tərzi-hərəkət, yer, zaman, kəmiyyət, səbəb, məqsəd zərflikləri. Zərfliyin ifadə vasitələri. **Cümlənin həmcins üzvləri.** Həmcins üzv anlayışı. Bütün cümlə üzvlərinin həmcins ola bilməsi. Həmcins üzvlərin bir-biri ilə intonasiya və tabesizlik bağlayıcıları ilə əlaqələnməsi. Həmcins üzvlərdə bəzi şəkilçilərin, köməkçi sözlərin (hissəciklərin) və qoşmaların ixtisar oluna bilməsi. Xəbərin həmcins mübtədalarla uzlaşması.<br>**Həmcins üzvlərdə ümumiləşdirici sözlər.** Ümumiləşdirici sözlərdə qoşa nöqtə və tire işarələrinin işlədilmə məqamları.<br>**Cümlədə sözlərin sırası**. Söz sırasının qanunauyğunluğu. Bu qanunauyğunluğun nəqli cümlədə daha çox gözlənilməsi. Ayrı-ayrı cümlə üzvlərinin yeri. Bəzi məqamlarda söz sırasının pozula bilməsi.<br>**Əlavələr**. Əlavənin özündən əvvəlki sözü izah etməsi, konkretləşdirməsi. Əlavənin aid olduğu cümlə üzvündən sonra gəlməsi. Bütün cümlə üzvlərinin əlavəsinin olması. Əlavənin işləndiyi yerlər. Əlavələrdə durğu işarələri: tire və vergüldən istifadə olunması. Tire və defisin bir-birindən fərqi. |
| **Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər**. Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmamaq anlayışı. Belə sözlərin cümlə üzvlərindən fərqi.<br>**Ara sözlər.** Onların nitqdə rolu - ifadə olunan fikrə münasibət bildirməsi. İfadə vasitələri. Ara sözlərin formaca növləri: söz formasında olanlar, söz birləşməsi formasında olanlar, cümlə formasında olanlar. Ara sözlərin məna növləri. Ara söz və modal söz. Ara sözlərin cümlədə yeri və onlarda vergülün işlədilməsi qaydaları.<br>**Xitab**. Onun müraciət bildirməsi. Xitabların mübtəda ilə oxşar və fərqli cəhətləri. Xitabın cümlədə işlənilmə yerləri. Xitabların ifadə vasitələri. **Cümlə.** Cümlə haqqında ümumi məlumat.<br>**Məqsəd və intonasiyaya görə cümlənin növləri.** Nəqli cümlə. Sual cümləsi. Sual cümləsinin növləri. Əmr cümləsi. Əmr cümləsinin xəbərinin feilin əmr şəkli ilə ifadəsi. Nida cümləsi. Nida cümləsinin istifadə olunduğu yerlər.<br>**Baş üzvlərin iştirakına görə sadə cümlənin şəxsə görə növləri: Müəyyən şəxsli cümlələr.** Mübtədalı müəyyən şəxsli cümlələr. Mübtədasız müəyyən şəxsli cümlələr. Belələrində mübtədanın asanlıqla təsəvvür oluna bilməsi.<br>**Qeyri-müəyyən şəxsli cümlələr**. Belə cümlələrdə mübtədanın olmaması. Hərəkətin qeyri-müəyyən şəxs (və ya qeyri-müəyyən şəxslər) tərəfindən icra edilməsi. Xəbərlərinin həmişə üçüncü şəxsin cəmində olması. **Ümumi şəxsli cümlələr**. Belə cümlələrdə mübtədanın iştirak etməməsi və ifadə olunan fikrin qaydaya düşən, ənənəyə çevrilən bir fikir kimi qəbul edilməsi. Xəbərlərinin, bir qayda olaraq, III şəxsin cəmi və II şəxsin təkində olması.<br>**Şəxssiz cümlələr**. Belə cümlələrdə mübtədanın olmaması, mübtədanın cümləyə gətirilməsinin və ya təsəvvür edilməsinin qeyri-mümkünlüyü. Xəbərlərinin yalnız üçüncü şəxsin təkində olması (dəyişə bilməməsi). **Adlıq cümlələr**. Ayrı-ayrı sözlərin və ya söz birləşmələrinin xəbərlik şəkilçisi, şəxs sonluğu qəbul etmədən sadalanaraq fikir ifadə etməsi. Belələrinin şərti olaraq adlıq cümlə adlanması. Adlıq cümlələrin ifadə vasitələrinin adlıq halda olması. **Söz-cümlə.** Heç bir şəkilçidən, əlavə vasitələrdən istifadə etmədən təklikdə işlənərək, fikrin təsdiqi və inkarını bildirən sözlərin söz-cümlə kimi götürülməsi. Söz-cümlə üzvlənməyən cümlə kimi. ***Bəli, yox, xeyr*** sözləri. Ümumən, bəzi ədatların, modal sözlərin, nidaların söz-cümlə mövqeyində işlənməsi. Belələrindən, adətən, sual cümlələrinə cavab kimi istifadə olunması. |

| |
|---|
| **Mürəkkəb cümlə haqqında ümumi anlayış**. **Tabesiz mürəkkəb cümlələr.** Tabesiz mürəkkəb cümlələrin tərəfləri arasında tabesizlik əlaqəsinin olması. Tabesiz mürəkkəb cümlələrin tərəflərini bağlayan vasitələr: intonasiya və tabesizlik bağlayıcıları. Bağlayıcısız və bağlayıcılı tabesiz mürəkkəb cümlələr. **Tabeli mürəkkəb cümlələr**. Tabeli mürəkkəb cümlə anlayışı. Tabeli mürəkkəb cümlənin tabesiz mürəkkəb cümlələrdən fərqi. Tərkib hissələri arasında tabeli bağlılığın olması. Tabeli mürəkkəb cümlədə ki bağlayıcısının yeri. Budaq cümləni baş cümləyə bağlayan vasitələr: intonasiya, bağlayıcı və digər vasitələr. Tabeli mürəkkəb cümlədə bağlayıcı sözlər. Baş və budaq cümlələr. Baş və budaq cümlələrin yeri. **Sintaktik təhlil.**<br>**Vasitəsiz və vasitəli nitq. Vasitəsiz nitq.** Başqasının nitqinin verilmə üsulları. Hər hansı bir şəxsin fikrinin eynilə, heç bir dəyişiklik edilmədən verilməsi. **Vasitəli nitq.** Hər hansı şəxsin fikrinin deyildiyi və ya yazıldığı kimi yox, həmin fikrin məzmununu saxlamaqla, ifadəsini bir qədər dəyişməklə verilməsi. Vasitəsiz nitqli cümlələrdə müəllifin sözlərinin ən çox nitq və təfəkkür feilləri ilə (dedi, söylədi, soruşdu, əmr etdi, düşündü, fıkirləşdi və s.) ifadə olunması. Vasitəsiz nitqin vasitəli nitqə çevrilə bilməsi. Vasitəsiz nitqli cümlələrdə durğu işarələrinin (dırnaq, qoşa nöqtə, vergül, tire) işlədilməsi. |
| **Dil nədir? Dilin quruluşu**. Dilin funksiyaları. Dilin cəmiyyətdə rolu. Dilin ictimai hadisə olması. Digər ünsiyyət vasitələri. Bəşəriyyətin yaddaşı – **Yazı**. Yazının tipləri: əşyəvi, şəkli (piktoqrafik), fikri (ideoqrafik) və hərfi (fonoqrafik) yazı.<br>**Azərbaycan ədəbi dilinin normaları:** fonetik norma, leksik norma və qrammatik norma.<br>**Durğu işarələri:** nöqtə, sual, nida, vergül, üç nöqtə, qoşa (iki) nöqtə, dırnaqlar, tire.<br>MƏTN ÜZƏRİNDƏ İŞ. |